

*FƏXRİ MÜSLÜM*

## *Türkiyə Respublikasının Cumurbaşqanı Sayın Rəcəb Teyyub Ərdoğana*

**Didərgin ruhlar da, oyandı bu gün,
Üstümüzdə Tanrı, Göy andı, bu gün,
Könül zirvələrə dırmandı bu gün,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Bu yol, Gültəkinə, Meteyə çəkdi,
Tanrı dağlarında ətəyə çəkdi,
Unutqan yurdlara, qitəyə çəkdi,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Ömür, puçurlayıb, qol-qanad açdı,
Qürur da, Günəşə, Ayına çatdı,
Səbir də, ox atan yayına çatdı,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Göydəmir atlarda nal təzələndi,
Cığır təzələndi, yol təzələndi,
Pərən-pərən Türkdə, hal, təzələndi,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Neçə Alparslana, özə qayıtdın,
Itmiş çəlimlərə, izə qayıtdın,
Sönmüş ocaqlara, közə qayıtdın,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Böldün  kədərləri, böldün dərdləri,
Saf-çürük edib də, neçə mərdləri,
Candan əziz tutdun ulu yurdları,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Səhv sözün unvanna əriştə kəsdin,
Çırpıb sifətinə, hər işdə, kəsdin,
Kəndir, kələfini örüşdə kəsdin,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Bilirəm, qarşıda günlər gözləyir,
Düşmən baxışları, kinlər gözləyir,
Uğurlu, uğursuz ünlər gözləyir,
Bu uğur, Türkündü!
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

**Üzdə Çavuşoğlun, Ulus Akar var,
Düşməni sıxar var, yadı sıxar var.
Önündə açacaq,
Hələ, neçə-neçə yaz var, bahar var,
Yaşa, var ol, Rəcəb Teyyub Ərdoğan.**

## *Ocağa getmisən, yurda getmisən*

**Ocağa getmisən, yurda getmisən,
Əl dəymə köhnəyə, qoy qalsın hələ.
Saxla sac yerini, ocaq yerini,
Könlümü birazca oylasın hələ.**

**Atam ağzı göyə yatardı çox vaxt,
Tavanda milləri saymağı vardı.
O qədər yüklüydü, dərdə, kədərə,
Sanki, dağı, daşı oymağı vardı.**

**Divara səcdə et, pola səcdə et,
Biraz ömür yeri, göz yeri qalsın.
Çoxumuz gedibdi, lap az qalmışıq,
Bircə xatirəlik, söz yeri qalsın.**

**Anamın, o tikiş maşını var ha,
Silib, təmizləynən, salavat çevir.
Qəmli zümzüməsu kölgələnibdi,
Bir qaşıq qaymağa, bala qat, çevir.**

**Evin havasını küləyə  az ver,
O binəva sazın gülləri qaçar.
"Qaraçı", "Dilqəmi" qulaqda sırğa,
Pərdədən qulağı, milləri qaçar.**

**Eyvandan yamaca hər baxış var ha,
Hələ də könlümdə izi yaşayır.
Yıxılıb, durduğum cığırlar şahid,
Neçə yarasının gözü yaşayır.**

**Çıx, bayır-bacaya, bulağa baş çək,
Bax, gör, zümzüməsi, qaynağı varmı.
Güyümlü, səhəngli, biraz vedrəli,
O kənd qızlarının yığnağı varmı.**

**Biraz Qantəpər dər, biraz Gülxətmi,
Dəmindən sinə də, təzə-tər olar.
Unutma, kəkotu, daşda yaxşıdı,
Içdikcə canda tər, üzdə tər olar.**

**Bilirəm, dərə də, o dərə deyil,
Biraz dərinləşib, ennənib indi.
Yamac at yerinə, ulağa qalıb,
Çaylar da, balığa yönnənib indi.**

**Daha, fərqi yoxdu şəhərin, kəndin,
Daha, göz açılmır, dumandan, çəndən.
Qarğa da ortaqdı qumru yeminə,
Darıdı, buğdadı, dənləyir dən-dən.**

**Ocağa getmisən, yurda getmisən,
Əl dəymə köhnəyə, qoy qalsın hələ.
Saxla sac yerini, ocaq yerini,
Könlümü birazca oylasın hələ.**

## *A, Turan ordum*

**İndidən, sevincim şehli çiçək tək,
Güldü gün üzünə, a, Turan ordum.
Gözlərim yollardan yığılmadı heç,
Göyərdi izinə, a, Turan ordum.**

**Bozqır çöllərində atlar kişnədi,
Qopdu fırtınalar, qatlar kişnədi,
Yarıldı bu dağ, daş, çatlar kişnədi,
Düşmən pərən düşüb,
Baş əyər dizinə, a, Turan ordum.**

**Qürurun ulduza, Aya uzandı,
Taxt-tacın xaqana, baya uzandı,
Qolların ox atan yaya uzandı,
Bədxahı çaşdırıb,
Od oldun gözünə, a, Turan ordum.**

**Dartıldı bayrağın səmaya, göyə,
Ya Allahu Əkbər, ya amin, deyə,
Hər pisi, yamanı, sən döyə-döyə,
Qayıtdın özünə, a, Turan ordum.**

**Ulu Atilladan, Metedən gəldiz,
Daha qədimlərdən, ötədən gəldiz,
Hər yerdə and yeri, Vətəni bildiz,
Eninə, düzünə, a, Turan ordum.**

**Yenidən qitələr gözlədi sizi,
Məzlumlar, sivillər gözlədi sizi,
Elə, qələbəyə səslədi sizi,
Bu yadın, düşmənin,
Özü nə, sözü nə, a, Turan ordum.**

**Marşın ağır-ağır, addımın ağır,
Dünya codlaşdıqca qəzəbin yağır,
Girəvə səninnikdi, hayqır, ya bağır,
Mini nə, yüzü nə, a, Turan ordum.**

**İndidən, sevincim şehli çiçək tək,
Güldü gün üzünə, a, Turan ordum.
Gözlərim yollardan yığılmadı heç,
Göyərdi izinə, a, Turan ordum.**

## *Laçın xatirələri*

**Duk-dik duran,
Qayaları adamsayaq, sal heykəl,
Dolam-dolam cığır heykəl, yol heykəl,
Heyranlıqdan, iç də, susar, ha dikəl,
Qəmə köklü,
Bu könlümün, xalı qaldı, Laçında.**

**Şəlvəsində taxta sexi yaş idi,
Güləbirdi, Əriklisi baş idi,
Alxaslıda gecələmək xoş idi,
Xoş əhvalım, halım qaldı, Laçında.
Qarıqışlaq, Ağoğlandan keçmişəm,
Minkəndində göy səmaya köçmüşəm,
Hava tutub,
Ömür, günün ağ yolundan keçmişəm,
Sağı qaldı, solu qaldı, Laçında.**

**Qırxqız yaylaq, sanki, uğur dilərdi,
Yal-yamacı, çiçək-çiçək, gülərdi,
Arıları yükün tutub gələrdi,
Əl dəyməmiş balı qaldı, Laçında.**

**Şam kəndinin yaz ağzına bələdəm,
Küləyinə, sazağına bələdəm,
Bu dünyanın boz ağzına bələdəm,
Göyü qaldı, alı qaldı, Laçında.**

**At ilxılı meşə vardı, göz oxşar,
Əl dəyməmiş qala vardı, söz oxşar,
Yaylaq vardı, binə vardı öz oxşar,
Hər çığırı, yolu qaldı, Laçında.**

**Buludları bir-birinə dəydikcə,
İslanardım, yağış dolu, döydükcə,
Könül açar,
Oylanardım,  bu dağları öydükcə,
Zirvələri, yalı qaldı, Laçında.**

**Yanan bina yaddaşımda, yadımda,
Orda bir vaxt,
Çay içmişdim, ətir vardı, dadında,
Gözü çıxsın düşmənin də, yadın da,
Od, alovun dili qaidı, Laçında.**

**Ağasından[1], Malikindən[2] söz ağlar,
Döngəsində, cığırında iz ağlar,
Qalan yurdun arxasınca göz ağlar,
Neçə-neçə  tale qaldı, Laçında.**

**Şam kəndinin yaz ağzına bələdəm,
Küləyinə, sazağına bələdəm,
Bu dünyanın boz ağzına bələdəm,
Göyü qaldı, alı qaldı, Laçında.**

*1. Ağa Laçınlı. 2. Malik Fərrux.
Mərhum şairlərimiz.*

## *Eldar Baxışın əziz xatirəsinə*

**Qubadlının payız ağzının
Yazıdüzüydü Eldar Baxış.
Payızın kövrək-kövrək əsən mehi,
onun saçına bənzər
Yazıdüzünün yovşan otunu
darayıb çevirərdi yalın yal boyunca,
boz-boz bozarana kimi.
Sanki, sığal verib qabardardı,
qıvrım-qıvrım qıvrılan dəniz ləpələri tək
qürub rənginə dönüb qızarana kimi.
Bozqır çöllərinin,
Bozqurd nəfəsli, bozqurd baxışlı,
nə endirilib, nə də, sındırla bilməyən
dağ adamıydı, aran adamıydı,
ozan adamıydı Eldar Baxış mərdliyi, qüruruyla.
Bərguşad çayının sahillərindəki
və budaqları
Hacıleyləkrin yurd, yuvası sayılan
qədim çinar ağacları kimiydi Eldar Baxış,
canında daşıdığı ağrlığın dərdiylə, kədəriylə.
Qərib-qərib çayın axarında kölgələnə-kölgələnə,
Ayla, Günəş arasındakı yükə şərik çıxardı,
əsrlərdən miraz qalmış,
ərimək bilməyən  minlərlə kələkötürün, əyrinin
və bir də,
gözə dirək olmuş bütsayaq diklərin
yox olmasına  şərik çıxardı.
Payızın son ayında çuxasını soyunmuş
çımçılpaq tut ağacıydı Eldar Baxış,
bəyaz səmaların bozunu yazırdı ruhuna.
Tarixin çarınçarpaz, səf düşmüş
O baş, bu başının soyuqluğunu,
ayazını yazırdı ruhuna.
Əli Tanrıda, Tanrıdağında,
baxışı yanıqlı-yanıqlı,
Zəngəzurda, Göyçədə, Təbrizdə, Dərbənddə
və bir də,
yurd olmuş yurdlarda çiliklənərdi.
Bütün ağrılar, acılar
şeirlərində şirinli, acılı güllənsə də,
çiçəklənsə də,
qəmi qəm kimi, kədəri kədər kimi,
yerlə göy arasında ələnər,
Ayın Ay işığına bədirlənərdi.
O, türkün ağır düşmüş axşamları kimiydi,
düşmənlərinTürkə atdığı salaveyləri,
Türkün qədin yazısında,
bir-bir uralayıb, oxuyardı,
Türkdən oğurlanan,
adı da, soyadı da, şərqini, mətbəxi, rəqsi də,
şeiriylə, sözüylə, onların alnına çırpar,
gözünə soxardı.
O, qınından sıyrılmış qədim türk qılıncıydı,
ancaq cəllad baltasından,
cəllad kötüyündən xoşu gəlməzdi.
Xoşu,
kötük üstdə çay içməkdən gələrdi,
bütün ağrıları,
bütün acıları bir-bir, qələmiylə,
ağ-ağ vərəqlərə köçürməkdən gələrdi.
Qubadlının payız ağzı,
Və bir də,
Bozqır çöllərinə oxşayan
Yazıdüzüydü Eldar Baxış,
kövrək mehin ağzında bozu seçilə-seçilə,
sanki yovşan ətirli payız ağzı,
yaz ağzıydı Eldar Baxış.
Sözünün tutumuyla, kəsəriylə,
haqsızlığa, əbədi düşmən kəsilmiş,
dəhrəağzıydı, dəryazağzıydı Eldar Baxış.**

## *Tülkü qələt edər, sənin yanında*

**Tülkü qələt edər, sənin yanında,
Zatın, yol keçəndən, ötəndən gəlir.
Neçə tuman altda, ucaldın biraz,
Sorağın, şöhrətin min tindən gəlir.**

**O qədər yalana vərdiş etmisən,
Başının bircə cüt gülləsi çatmır.
Hətta, yoğnudun da, rüşvətdən, paydan,
Boynunun qapazı, şilləsi çatmır.**

**Nəsildən danışdım, kökdən danışdın,
Nə budaq bilənsən, nə kök bilənsən.
Üzün qələt yeri, silib, keçirsən,
Nə papaq bilənsən, nə börk bilənsən.**

**Təbəssümün, pambıq gülüdü sanki,
Tikanı böyründən, başından çıxar.
Zarımaq, sızlamaq sənin adətin,
Ruzusu, gözünün yaşından çıxar.**

**Dayıların sorğu, sual altında,
Sən də, gizlənibsən küncdə, bucaqda.
Təzə dost, tanışa köksün atlanır,
Daha qalamazsan, köhnə qucaqda.**

**Haram bir tikəyə, sahib çıxmağın,
Bilirəm, səni də, bitirər bir gün.
Özgə kürsülərdən yapışmaq çətin,
Bayıra, bacaya ötürər bir gün.**

**Balıq, tilovuna, düşənə bənddi,
Bilməz ki, son hardan, ün hardan gəlir.
Dünya zindan kimi, ömür də, dustaq,
Dar olmuş gecəsi, gün hardan gəlir.**

**Kinin də,  sirkə tək, necə tünd imiş,
Heç bunu, sən özün bilmədin hələ.
Şəhid bir dostunun yarında gözün,
Necə də, çatlayıb, ölmədin hələ.**

**Eşqin, Göy Tanrıda,  göylərdə,  guya,
Yolun çiçək açdı, gülə bələndi.
Quyruğun taptansa, ilan kimisən,
Ömür-gün zəhərə, külə bələndi.**

**Necə də, sırtıqsan, arsız adamsan,
Necə də, bu dilə, düyün düşmədi.
Özgə meydanında at oynadaraq,
Yelləndin, bu yelin, küyün düşmədi.**

**Tülkü qələt edər, sənin yanında,
Zatın, yol keçəndən, ötəndən gəlir.
Neçə tuman altda, ucaldın biraz,
Sorağın, şöhrətin min tindən gəlir.**